

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 55 (20.956)

29 mart 2014-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Soyqırımı qurbanlarının xatirəsi anılıb



Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatında 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə rayon təşkilatının sədri İsa Məmmədov çıxış edərək bu qanlı hadisələrin törədilməsi səbəblərindən və nəticələrindən danışmışdır. Bildirmişdir ki, 1918-ci ilin mart qırğınları ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı aktlarından biridir. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı aktları və deportasiya ilə bağlı məsələyə ilk siyasi-hüquqi qiymət ümummilli lider Heydər Əliyev tərəfindən verilmişdir. Ulu öndər Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərman bu baxımdan mühüm tarixi sənəddir. Həmin tarixi sənəddə hər il martın 31-nin "Azərbaycanlıların Soyqırımı Günü" kimi qeyd edilməsi öz əksini tapmışdır.

Vurğulanmışdır ki, görkəmli dövlət xadimi Heydər Əliyevin bu sahədəki ideyalarını ölkə Prezidenti cənab İlham Əliyev prinsipiallıqla davam etdirməkdədir. Hazırda Azərbaycan dövləti erməni təcavüzünün nəticələrinin aradan qaldırılması, Dağlıq Qarabağ münaqişəsinin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması, erməni millətçiliyinin və onun təcavüzkar siyasətinin ifşası, ölkəmizin ədalətli mövqeyinin dünyanın aparıcı dövlətləri və nüfuzlu beynəlxalq təşkilatları tərəfindən etiraf olunması və müdafiəsi istiqamətində ardıcıl və məqsədyönlü iş aparmaqdadır. Dövlətimizin iqtisadi potensialı və siyasi qüdrəti artdıqca, beynəlxalq nüfuzu gücləndikcə onun ədalətli mövqeyini müdafiə edən dövlətlərin və siyasi dairələrin də sayı artır. Avantürist "böyük dövlət" ideyasının girovuna çevrilmiş Ermənistan bütün qlobal iqtisadi-enerji layihələrindən kənarda qalmış, nəticədə, çox ağır iqtisadi böhranla üzləşmişdir. Azərbaycan isə dünyanın ən böyük transmilli və qlobal enerji-kommunikasiya layihələri mərkəzinə çevrilmişdir. Bu gün Azərbaycan həm də Cənubi Qafqaz regionunda çox güclü hərbi potensiala malik sarsılmaz bir orduya sahibdir. Sülh danışıqlarının heç bir səmərə verməyəcəyi təqdirdə işğal altında olan ərazilərimizin hərbi yolla azad ediləcəyi şəksizdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü münasibətilə xalqımıza müraciətində deyildiyi kimi: ***"Xalqımızın vətənpərvərliyi, birliyi və həmrəyliyi, Azərbaycan rəhbərliyinin siyasi iradəsi sayəsində qarşımıza qoyduğumuz bütün məqsədlərə, o cümlədən ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasına, soyqırımı həyata keçirənlərin, insanlar və xalqlar arasında nifaq və düşmənçilik salanların ifşasına nail olacağıq".***

Sonra partiya üzvlərindən Füzuli Salmanov, Əli Hacıyev və başqaları çıxış etmişlər.

Sonda tədbir iştirakçıları soyqırıma həsr olunmuş sərgiyə baxmışlar.

***Dünən Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatı rayonun Yaycı kəndində Yaycı soyqırımı qurbanlarının abidəsi önündə 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar tədbir keçirib.***

Əvvəlcə tədbir iştirakçıları abidə ətrafında soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş iməcilikdə iştirak edib, ağac və gül kolları əkiblər. Sonra soyqırımı qurbanlarının abidəsi önünə gül dəstələri düzülüb, 1 dəqiqəlik sükutla soyqırımı qurbanlarının əziz xatirəsi yad edilib.

Tədbirdə Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının sədri Qadir İbrahimov məruzə edərək bildirib ki, azərbaycanlıların kütləvi surətdə qətlə yetirilməsi, repressiyalara məruz qalması, doğma yurdlarından sürgün edilməsi və didərgin salınması XX əsr tariximizin ən faciəli və dəhşətli səhifələrindəndir. 1918-ci ilin mart ayından etibarən əks-inqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlanılıb.

Qeyd olunub ki, ermənilər, xüsusilə də Andranikin silahlı quldur dəstəsi 1918-ci ilin iyun-avqust aylarında Naxçıvan mahalının dinc türk-müsəlman əhalisinə minbir vəhşiliklə divan tutub. İşğalçılara ciddi müqavimət göstərmiş Yaycı kəndinin əhalisinə divan tutulub, kənd viran qoyulub. Culfa rayonu ərazisində Araz çayı üzərindəki körpü yandırılıb, qadınlara, uşaqlara və qocalara rəhm edilməyib, sakinlərə insanlığa sığmayan işgəncələr verilib. Bu vəhşətdən xilas olmağa çalışan 300-ə qədər dinc sakin Araz çayını keçərkən boğulub. Ümumiyyətlə, Yaycı kəndində ermənilər tarixdə bənzəri olmayan vəhşiliklər törədiblər.

Vurğulanıb ki, "Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan" adlı tarixi kitabda göstərilir ki, Culfaya çəkilən erməni qüvvələri sərhəddə yerləşən Naxçıvan qəzasının böyük kəndlərindən biri olan Yaycı kəndinə hücum etdilər. Heç bir şeydən xəbəri olmayan Yaycı kənd əhalisi Andranikin dəstəsi tərəfindən mühasirəyə alındı. Andranikin qaniçən dəstəsi Araz sahilində 4 minə yaxın qadın, uşaq və yaşlıya hücum edərək çoxunu qətlə yetirdi. Yaycı soyqırımından sonra bölgədəki ermənilər Andranikin dəstəsi ilə bərabər müsəlman kəndlərinə hücumlarını davam etdirdilər.



Qeyd olunub ki, Yaycı qətliamı sovetlər dövründə unutdurulmağa çalışılıb. Ölkəmiz müstəqillik əldə etdikdən sonra bu faciəyə hüquqi-siyasi qiymət verilib, 2007-ci ildə Yaycı soyqırımı qurbanlarının xatirəsinə abidə ucaldılıb.

Sonra YAP Culfa Rayon Təşkilatının şura üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Fərəc Fərəcovun, YAP üzvü, kənd ağsaqqalı Abbas Zülfüqarovun, təşkilatın Qadınlar Şurasının üzvü, Saltaq kənd ərazi ilk təşkilatının sədri Sevinc Mustafayevanın, YAP Culfa Rayon Təşkilatı İdarə Heyətinin üzvü, Əbrəqunus kənd ərazi ilk təşkilatının sədri Fikrət Quliyevin, YAP rayon təşkilatı Gənclər Birliyinin üzvü, Yaycı kənd 1 nömrəli tam orta məktəbin müəllimi Əli İbrahimovun, YAP Culfa rayon Dizə kənd tam orta məktəbi ərazi ilk təşkilatının sədri Ədalət Əhmədovun, Yaycı kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Səfər Quliyevin çıxışları olub.

Sonda Yaycı kənd 1 və 2 nömrəli tam orta məktəblərin şagirdləri soyqırımına həsr edilmiş şeirləri bədii qiraət ediblər.

* * *

Martın 28-də Naxçıvan Dövlət Universitetində 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş konfrans keçirilmişdir. Konfransı giriş sözü ilə universitetin rektoru, professor Saleh Məhərrəmov açmışdır.



Konfransda "Qeyrət" nəşriyyatının direktoru, tarix üzrə fəlsəfə doktoru, dosent Vaqif Məmmədov "Ulu öndər Heydər Əliyev və Azərbaycanda soyqırımı tarixinə ümumdövlət münasibəti" mövzusunda məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, ermənilərin azərbaycanlılara qarşı dəfələrlə törətdikləri soyqırımı aktına ilk tarixi, siyasi və hüquqi qiymət ümummilli lider Heydər Əliyevin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra verilmişdir. Bu gün Azərbaycan həqiqətlərinin dünya dövlətləri və ictimaiyyəti tərəfindən qəbul edilməsi istiqamətində ölkə Prezidenti cənab İlham Əliyev uğurlu siyasət yürütməkdədir.

Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Xəzər Hüseynov "1918-1920-ci illərdə Naxçıvanda ermənilərin azərbaycanlılara qarşı soyqırımı" adlı məruzəsində vurğulamışdır ki, 1918-ci ilin iyul-avqust aylarında Naxçıvanda Andranikin silahlı dəstələri misligörünməmiş cinayətlər törətmiş, günahsız insanları qətlə yetirmişlər. 1918-1921-ci illərdə Naxçıvanda ermənilər tərəfindən 73 min 727 nəfər azərbaycanlı qətlə yetirilmiş, 15 kənd viran qoyulmuşdur. Lakin yerli özünümüdafiə dəstələri erməni işğalçılarına qarşı əzmkarlıq və mətanətlə mübarizə aparmış, 1918-ci ilin noyabrında Naxçıvanda Araz-Türk Respublikası öz müstəqilliyini elan edərək regionun ərazi toxunulmazlığı istiqamətində fəaliyyət göstərmişdir. Soyqırımı hadisəsi ilə bağlı real tarixi faktlar isə Azərbaycan müstəqillik əldə etdikdən sonra ümummilli lider Heydər Əliyevin siyasi uzaqgörənliyi sayəsində dünya ictimaiyyətinə çatdırılmışdır.

Ümumi tarix kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Abdulla Mustafayev "XX əsrin sonlarında ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasəti" adlı məruzəsində bildirmişdir ki, 1918-1920-ci illərdə Azərbaycanda 250 min, Qərbi Azərbaycanda 132 min nəfər azərbaycanlı erməni vandalları tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir. Azərbaycanlılara qarşı iki əsr davam edən soyqırımı düşünülmüş şəkildə, bəzi xristian dövlətlərinin havadarlığı ilə həyata keçirilmişdir. İki milyona yaxın azərbaycanlı ermənilərin Azərbaycana qarşı uzun illər boyu apardığı ardıcıl etnik təmizləmə, soyqırımı siyasətinin qurbanı olmuşdur.

Konfransda soyqırımdan bəhs edən sənədli film nümayiş etdirilmişdir.

**Xəbərlər şöbəsi**

***Ermənilərin Qafqaza köçürülməsi, yerləşdirilməsi və dövlətlərinin yaradılması ideyası I Pyotrdan başlayır. Lakin Rusiya öz məqsədinə XX əsrin əvvəllərində nail olmuşdur. Rusiya ilə İran arasında gedən iki müharibənin sonunda imzalanmış Gülüstan və Türkmənçay müqavilələri Azərbaycanın parçalanmasına gətirib çıxarmışdır. Türkmənçay müqaviləsinin 14 və 15-ci maddələri "təbəə alış-verişi" ilə bağlı idi. İrandan ermənilərin köçürülməsi məsələsi ikinci Rusiya-İran müharibəsinin (1826-1828) gedişində Sankt-Peterburqda qaldırılmışdır. İrəvan və Naxçıvan xanlıqlarını işğal etmiş general Paskeviç İrandan köçürülən ermənilərin hansı Azərbaycan torpaqlarına istiqamətləndirilməsi barədə konkret göstəriş də vermişdi: "Köçürülən erməniləri İrəvan və Naxçıvan əyalətlərinə istiqamətləndirmək lazımdır ki, həmin ərazilərdə xristian əhalinin sayı mümkün qədər artırılsın". Nəticədə, 1828-ci ilin fevral-iyun aylarında İrandan Şimali Azərbaycana – İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazisinə 8249 erməni ailəsi, yəni 40 min nəfər erməni köçürülmüşdür. Bir qədər sonra isə Şimali Azərbaycan torpaqlarına Osmanlı dövləti ərazisindən daha 90 min nəfərdən artıq erməni köçürülüb gətirilmişdir.***

*31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür*

## Azərbaycanlılara qarşı ermənilərin soyqırımı siyasəti

Bu köçürülməyə rəhbərlik edən erməni mənşəli rus polkovniki Q.Lazarev İran ərazisindən Şimali Azərbaycana köçürülən ermənilərə müraciətlə deyirdi: "...Orada (Şimali Azərbaycanda – İ.H.) siz xristianların məskunlaşdırıldığı yeni vətən əldə edəcəksiniz... İranın müxtəlif əyalətlərinə səpələnmiş xristianların (yəni ermənilərin – İ.H.) bir yerə cəmləşdiyini görəcəksiniz. Tələsin! Vaxt qiymətlidir. Tezliklə rus qoşunları İranı tərk edəcək. Bundan sonra sizin köçməyiniz çətinləşəcək və biz sizin təhlükəsiz köçməyinizə cavabdeh olmayacağıq. Azca itkiyə məruz qalsanız da, qısa zamanda hər şeyə nail olacaqsınız, özü də həmişəlik".

Həmin dövrdə ermənilər Naxçıvanda və Qarabağda xan-bəy torpaqlarında yerləşdirilmişlər. Qriboyedov bununla bağlı yazırdı: "Ermənilərin ilk dəfə buraxıldıqları torpaqlara əbədi sahib duracaqlarından müsəlmanlar içərisində yaranan qorxunu aradan qaldırmaq üçün mövcud ağır vəziyyətin uzun sürməyəcəyini bildirməklə onları

Ardı 2-ci səhifədə

sakitləşdirmək məsələsini biz dəfələrlə götür-qoy etmişik. Lakin Qarabağ və Naxçıvanda çar hökuməti tərəfindən elə bir siyasət yeridildi ki, öz başlarının hayına qalan xalq ermənilərin orada məskunlaşmasını unutmalı oldu".

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında 1828-ci ildə "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail olmuşlar. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması, faciələrə düçar olunması siyasətinin əsası qoyulmuşdur. Qeyd etməliyik ki, ermənilərin köçürülməsi başa çatdıqdan sonra "Erməni vilayəti"ndə olan 1125 kəndin 1111-də azərbaycanlılar yaşayırdı.

Ermənilər bununla da, tarixən düşündükləri "böyük Ermənistan" xülyalarını həyata keçirmək sahəsində real addımlar atmağa başlamışlar. Azərbaycan torpaqları hesabına yaradılmış "Erməni vilayəti"ndə rusların bilavasitə köməyi sayəsində məskunlaşdırılan ermənilər bütün Qafqaz ərazisində tarixin təhrif olunmasında, azərbaycanlılara qarşı soyqırımının həyata keçirilməsində fəal rol oynamışlar.

Ermənilər öz havadarlarının köməyi ilə XX əsrin əvvəllərində, yəni 1905-1907-ci illərdə əvvəlcə Bakıda, sonra isə Azərbaycanın digər regionlarında azərbaycanlılara qarşı soyqırımı həyata keçirmişlər. 1905-ci ilin fevralında Bakıda başlanan qırğınlar planlı şəkildə baş vermişdir. Ermənilər Bakıda erməni varlılarının köməyi ilə istədiklərinə nail olacaqlarına, Bakının neft səltənətini əllərinə keçirəcəklərinə və bundan sonra bütün Zaqafqaziyadan müsəlmanları silah gücünə qovub Ermənistan dövləti yaradacaqlarına əmin idilər. Fevralın 6-dan 10-na qədər Bakıda şiddətlə davam edən qırğınlar zamanı ermənilərin niyyətləri baş tutmamış və məğlub olmuşlar. Bakıda başlanan qırğın may-iyun aylarında Gəncə, Qarabağ, Şirvan, Zəngəzur, İrəvan, Şuşa, Cəbrayıl, Cavanşir, Qaryagin və başqa bölgələri də əhatə etmişdir.

1905-ci ilin may ayından başlayaraq Naxçıvan qəzasında da ermənilər soyqırımı aktı törətmişlər. Ermənilərin Naxçıvanda törətdikləri qırğınlar Ordubad, Cəhri, Şıxmahmud, Kültəpə, Əliabad, Çeşməbasar, Tivi, Tumbul və onlarla başqa şəhər və kəndləri əhatə etmişdir. Kazakların köməyindən istifadə edən ermənilər 1905-ci il noyabrın 26-da Naxçıvan şəhərindəki müsəlman bazarını tamam qarət etdikdən sonra od vurub yandırmışlar. Yanğın nəticəsində bazarda 85 dükan, 75 anbar və başqa tikililər məhv olmuşdur. Noyabr ayının 30-da Cəhri kəndinin yandırılmasında da kazaklar ermənilərlə birlikdə hərəkət etmişdilər. Həmin gün Naxçıvana gəlmiş İrəvan general-qubernatoru Paskeviç hadisələrin təfsilatı ilə maraqlanmamış, Cəhri kəndi tamam yanıb qurtarandan sonra, dekabrın 2-də kəndə yollanmış, naxçıvanlıların haqlı şikayəti ilə bir daha qarşılaşmamaq üçün gecə ikən qatarla İrəvana qayıtmışdı. Həmin ilin may ayında Ordubad qəzasının Tivi kəndində ermənilərlə azərbaycanlılar arasında baş vermiş münaqişə ilə əlaqədar buraya 500-ə yaxın əsgər və zabit göndərilmişdir. Sənədlərdən aydın olur ki, hərbi hissə kənddəki müsəlmanlara qarşı zor tətbiq etmiş, onları öldürmüş, əslində, ermənilərə kömək etmişdir.

Təxminən iki ilə qədər davam edən qanlı toqquşmalar nəticəsində Azərbaycan şəhərlərinə böyük zərər dəymiş, 300-dən çox kənd dağıdılmış, müxtəlif məlumatlara görə, ölənlərin sayı 80-100 min nəfərə çatmışdır.

Ötən əsrin ikinci onilliyində ermənilərin azərbaycanlılara qarşı törətdikləri 1918-ci il soyqırımı daha geniş miqyas almış və daha amansız olmuşdur. Həmin dövrdə Bakıda, Qubada, Şamaxıda, Lənkəranda, Salyanda, Göyçayda və başqa yerlərdə dəhşətli qırğınlar törədilmişdir. 1918-ci ilin soyqırımı hadisələri S.Şaumyanın rəhbərlik etdiyi Bakı Kommunası hökumətinin əli ilə həyata keçirilmişdir. Bakı qırğınında Y.Korqanov və Petrovla birlikdə azərbaycanlı qanına susamış A.Mikoyanın, Hamazaspın, Avetisyanın, Lalayanın quldur dəstələri xüsusi fəallıq göstərmişlər. Bakıda erməni daşnakları dinc əhaliyə üç gün divan tutmuş, 17 min azərbaycanlını vəhşicəsinə öldürmüş, "İsmailiyyə"ni yandırmış, bir neçə qəzet və jurnal redaksiyalarını dağıtmışlar. A.Mikoyanın "Qızıl qvardiyası"nın vəhşiliyi nəticəsində İçərişəhərdə yaralılar yatan xəstəxanaya od vurulmuş, 2 minədək xəstə yandırılmış, qaçanlar isə güllələnmişdir. "Bolşevik" Hamazasp, Əmiryan və digər erməni millətçiləri azərbaycanlılara qarşı törətdikləri vəhşilikdə heç də A.Mikoyandan, S.Şaumyandan geri qalmırdılar.

Bakı şəhərində soyqırımı bolşevizm bayrağı altında həyata keçirilirdi. Guya bolşeviklər hökumətə qarşı çıxış edən qüvvələrə divan tuturdular. Əslində isə bolşevik adı ilə pərdələnənlərin azərbaycanlılara qarşı törətdikləri milli qırğın idi. Görkəmli dövlət xadimi Nəriman Nərimanov ermənilərin törətdikləri qırğınlardan dəhşətə gələrək yazırdı: "Müsəlman hətta bolşevik olsaydı belə, ona aman vermirdilər. Daşnaklar deyirdilər: "Biz heç bir bolşevik tanımırıq, təkcə elə müsəlman olmağın kifayətdir". Onlar kefi istədikləri adamı öldürür, evləri dağıdır, xaraba qoyurdular... Bolşevizm bayrağı altında daşnaklar müsəlmanlara qarşı hər cür vəhşiliyə yol verirdilər. Nəinki kişilərə, hamilə qadınlara da rəhm etmirdilər".

Bakı ilə yanaşı, ermənilər Azərbaycanın digər şəhərlərində – Qərbi Azərbaycanda, Naxçıvanda, Zəngəzurda, Şamaxıda, Quba-Xaçmaz bölgələrində azərbaycanlılara qarşı tarixdə görünməmiş qəddarlıq etmiş, onlara divan tutmuşlar.

Şamaxıda qırğın törətmək üçün 1918-ci ilin əvvəllərində oraya 2 min nəfər erməni və 65 araba silah göndərilmiş, ermənilər tam silahlandırılmışdılar. Lalayan və Əmiryanın başçılıq etdikləri erməni quldurları 15 minlik əhalisi olan Şamaxı şəhərini və qəzanın 58 kəndini dağıtmış, 12 mindən artıq soydaşımızı qətlə yetirmişlər. Quba bölgəsində 122 müsəlman kəndi dağıdılmış, evləri yandırılmış, 10 mindən çox əhali vəhşicəsinə qətlə yetirilmişdir. Son illərdə Quba şəhərində böyük insan kütləsinin vəhşi yollarla öldürülmüş məzarlığı aşkar olunmuşdur. Şəhərdə 165 ev və tikili yandırılmış və qarət edilmişdir. Gəncə quberniyası üzrə mart soyqırımı zamanı 115 kənd dağıdılmış, bu kəndlərdə kişili-qadınlı 10 min 66 nəfər azərbaycanlı öldürülmüş və şikəst edilmişdi. Ümumilikdə, 1918-ci ilin mart-aprel aylarında Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda ermənilər 50 min azərbaycanlını qətlə yetirmişlər.

1918-1920-ci illərdə ermənilər Bakı quberniyasında 229, Gəncə quberniyasında 272, İrəvan quberniyasında 211, Zəngəzurda 115, Qarabağda 157, Qars əyalətində 92, İqdır və Eçmiədzin qəzalarında 60, Göyçə quberniyasında 22, Sürməli qəzasında 96, Yeni Bəyaziddə 84, Şərurda 76, Vedibasarda 118, Dərələyəzdə 74 kəndi yerlə-yeksan etmişlər. Daşnaklar həmin illərdə Qərbi Azərbaycanda (indiki Ermənistanda) qədim ata-baba yurdlarında yaşayan 565 min azərbaycanlını məhv etmişlər. Andranik Ozanyanın başçılıq etdiyi dəstə Qarabağ, Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarında azərbaycanlıları kütləvi surətdə qılıncdan keçirmişdir.

Bu illərdə Naxçıvan bölgəsinə yiyələnmək xülyasına düşən daşnaklar yerli əhaliyə qarşı vəhşiliklər törədir, onları öldürür və bu ərazini azərbaycanlılardan təmizləməyə çalışırdılar. 1918-ci ildə Naxçıvanda ən dəhşətli vəhşiliklər törədən Andranik Ozanyan təkcə Gilançay və Əlincəçay hövzələrində 80-dən artıq kəndi viran qoymuş, əhalisini isə amansızlıqla qətlə yetirmişdir. Arxiv materialları, tədqiqat əsərləri, müasirlərin xatirələri təkzibolunmaz faktlarla təsdiq edir ki, rus ordusundan aldıqları döyüş sursatı ilə silahlanmış erməni quldur dəstələri 1918-ci ilin mart ayında Naxçıvanın müxtəlif yerlərində dəhşətli qırğınlar törətmişlər.

1918-ci il iyul ayının 24-də Xoy şəhəri yaxınlığında türk qoşunları tərəfindən məğlub edilən Andranik öz qoşunları ilə Culfa bölgəsinin Yaycı kəndi ərazisindən Arazı keçərək Naxçıvana daxil olmuşdur. Naxçıvan şəhərini tutmağı öz qarşısına məqsəd qoyan Andranik Aza, Düylün, Yaycı, Dizə kəndlərinin əhalisini qılıncdan keçirmişdir. Qısa müddət ərzində o, Ordubad dairəsinin əksər hissəsini, Culfa şəhərini və bir sıra kəndləri işğal etmişdir. Mətbuat materialları təsdiq edir ki, həmin vaxt Andranik Gilançay və Əlincəçay vadisində çoxlu kəndi dağıdıb viran qoymuş, əhalinin əksəriyyətini vəhşicəsinə öldürmüşdür.

Nehrəm kəndinə və Naxçıvan şəhərinə uğursuz hücumdan sonra ermənilər Naxçıvançayın sol sahilində yerləşən kəndlərdə, xüsusilə "Sirab dərəsi" adlanan yerdə qanlı qətllər törətmiş, ətraf kəndlərdən qaçıb buraya toplaşmış əhalini qılıncdan keçirmişlər. Həmin vaxt ermənilər yaxın ərazilərdən Sirab kəndinə pənah gətirmiş və kənddəki üç məsciddə gizlənmiş 1000-dən artıq günahsız insanı od vurub yandırmışlar.

Həmin dövrdə Naxçıvanda fəaliyyət göstərən Müsəlman Milli Komitəsinin katibi işləmiş Mirzə Bağır Əliyev hadisələrin, erməni vəhşiliklərinin bilavasitə şahidi olmuş və onları qələmə almışdır. Aydın olur ki, Azərbaycanın bu qədim guşəsi və onun sakinləri də başqa torpaqlarımız kimi, erməni millətçilərinin düşmən siyasətinin hədəfinə çevrilmişdir. Ərzurumda nəşr olunan "Kaf dağı" adlı qəzet Türkiyə qaynaqlarına əsaslanaraq məlumat vermişdir ki, 1918-1921-ci illərdə Naxçıvan bölgəsində ermənilər tərəfindən 73727 nəfər azərbaycanlı ən vəhşi üsullarla öldürülmüşdür. Əgər 1918-ci ildə Naxçıvan bölgəsində 130 minə qədər əhali yaşayırdısa, 1921-ci ildə Naxçıvan bölgəsinin əhalisinin sayı azalaraq 72 minə enmişdi.

Ancaq Naxçıvanın özünümüdafiə dəstələri bu ərazinin ermənilər tərəfindən işğal olunmasına imkan verməmişlər. 1919-cu il dekabrın 22-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin rəhbəri Nəsib bəy Yusifbəyli parlamentdəki çıxışında naxçıvanlıların bölgəni müdafiə etmək üçün göstərdiyi şücaəti belə xarakterizə etmişdir: "İgid naxçıvanlılar, şərurlular... bu məsələni özləri həll ediblər; onlar həyatlarını, ailələrinin şərəfini və var-dövlətlərini riskə qoyaraq doğma torpağa – Vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da, hökumətin işini asanlaşdırdılar".

Ümumiyyətlə, araşdırmalar nəticəsində sübut olunmuşdur ki, erməni hərbi birləşmələri 1914-1916-cı illərdə Azərbaycanın cənubunda 150 min, Şərqi Anadoluda 200 min, 1918-1920-ci illərdə Şimali Azərbaycanda 250 min, Qərbi Azərbaycanda 132 min azərbaycanlını vəhşicəsinə qətlə yetirmişlər.

Azərbaycan Xalq Təsərrüfatı Şurasının sədri işləmiş N.Solovyov V.İ.Leninə "Çevrilişdən sonrakı iki ayda (may-iyun) Azərbaycanda bizim siyasətimiz" adlı hesabatında yazırdı: "Çevrilişə qədər hətta ziyalılar içərisində Sovet hakimiyyətinə müəyyən rəğbət var idi. Azərbaycan İnqilab Komitəsinin tərkibi azərbaycanlılardan seçilsə də, heç kimə sirr deyildir ki, onun üzərində partiyanın hegemonluğu vardır. Partiya rəhbərliyində isə ermənilər, gürcülər çoxluq təşkil edir. Onlar azərbaycanlıları, xüsusilə ziyalıları sağda-solda güllələyirdilər. Sanki onların apardıqları siyasət Azərbaycanı başçısız qoymağa doğru istiqamətləndirilib. Küçələrdən kütləvi surətdə həbs olunaraq aparılan azərbaycanlılara qarşı ermənilərin istehzalı gülüşləri belə bir fikri təsdiqləyir ki, Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi ümumiləşən fəlakətdir". O daha sonra yazırdı ki, "Ermənistan Respublikası yaranarkən onun hüdudlarında 250 müsəlman kəndi var idi, onlar hamısı məhv edilmişdir, indi orada bir nəfər də müsəlman yoxdur".

Göründüyü kimi, Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra da ermənilər azərbaycanlılara qarşı soyqırımı siyasətini davam etdirmişlər. Bu dövrdə, yəni XX əsrin 20-30-cu illərində, eləcə də 1941-1945-ci illər müharibəsindən sonrakı dövrdə ermənilər azərbaycanlıların həbs edilərək Sibirə göndərilməsində, "xalq düşməni" adı altında güllələnməsində, din xadimlərinin və görkəmli ziyalıların məhv edilməsində, əsassız repressiyaların günahsız insanlara qarşı tətbiq olunmasında çox böyük rol oynamışlar. Rəsmi məlumatlara görə, 1937-ci ildə Azərbaycanda 100 min nəfərdən artıq adam mərhələlərlə sürgün edilmiş, 3 min kəndli məhv olunmuş, "xalq düşməni" kimi 29 min nəfər güllələnmiş və ya Sibirə sürgünə göndərilmişdir.

Xəbis niyyətlərindən əl çəkməyən erməni daşnakları müharibədən sonrakı dövrdə Qərbi Azərbaycan ərazisindən azərbaycanlıların deportasiyasına nail olmuşlar. 1948-1953-cü illərdə 144 min 654 nəfər, 1988-1992-ci illərdə isə 250 min soydaşımız indiki Ermənistan ərazisindən, azərbaycanlıların tarixən yaşadıqları ata-baba yurdundan zorla çıxarılmışdır.

Ötən əsrin 90-cı illərinin əvvəllərində işğal edilmiş Dağlıq Qarabağdakı 80 yaşayış məntəqəsindən 60 min azərbaycanlı doğma ocaqlarından didərgin salınmış, digər 7 rayondan 700 min azərbaycanlı ev-eşiyini tərk edib respublikanın 58 yaşayış məntəqəsində məskunlaşmışdır. Hərbi əməliyyatlar nəticəsində respublikamızın 10 şəhəri, 876 kəndi, 700 ictimai bina, 693 məktəb, 862 mədəniyyət sarayı və klub, 652 tibb məntəqəsi, o cümlədən 191 xəstəxana, 160 körpü, 800 kilometr avtomobil yolu, 15 kilometr elektrik xətti dağıdılmış, minlərlə soydaşımız qətlə yetirilmişdir.

Erməni cəlladları tərəfindən törədilən Xocalı soyqırımı dünya tarixində analoqu olmayan vəhşilikdir. Xocalı soyqırımı zamanı 613 nəfər xüsusi qəddarlıqla öldürülmüş, 1275 nəfər əsir götürülmüşdür. Onların çoxundan bu gün də xəbər yoxdur.

Göründüyü kimi, iki əsrdir ki, məkrli və qaniçən erməni cəlladları Azərbaycan xalqına qarşı soyqırımı siyasəti yeritmiş, soydaşlarımızı qətlə yetirmiş, repressiya və deportasiyaya məruz qoymuş, etnik təmizləmə aparmış, ərazilərimizin bir hissəsini işğal etmiş və bu gün də yeni ərazilər tutmaq fikirlərindən əl çəkməmişlər. Nəticədə, xalqımız ağır məhrumiyyətlərə, milli facia və məşəqqətlərə məruz qalmışdır.

Sovet hakimiyyəti illərində ermənilərin törətdikləri soyqırımlar xalqa zorla unutdurulmuş, həmin dövrdə baş verən faciələrin obyektiv tədqiqinə yasaq qoyulmuş, faciənin əsl mahiyyəti təhrif olunmuş, xalqımızın tarixi saxtalaşdırılmışdır. Bu hadisələrin əsl mahiyyəti ulu öndərimiz Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanında açılmış, ermənilərin Azərbaycan xalqına qarşı əsrlər boyu apardığı soyqırımı siyasəti dərindən təhlil edilmiş və ona ilk dəfə siyasi qiymət verilmişdir. Fərmanda deyilir: ***"Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə – 1918-ci il mart soyqırımına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq, soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir".*** Azərbaycan tarixinə işıq salan bu mühüm tarixi sənədə uyğun olaraq, hər il ölkəmizdə martın 31-i "Azərbaycanlıların Soyqırımı Günü" kimi yad edilir.

**Azərbaycanın milli problemlərinin beynəlxalq səviyyədə qaldırılması, erməni vandalizminin ifşası istiqamətindəki əzmkar və qətiyyətli fəaliyyət bu gün Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 1918-ci ildə törədilən azərbaycanlıların soyqırımının təşkilatçıları olan ermənilər tarix qarşısında cavab verməlidirlər. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözləri ilə desək, biz yalnız tarixi ədalətin bərpa edilməsini, işğal və soyqırımı siyasəti yürüdənlərin beynəlxalq ictimaiyyət qarşısında cavab verməsini istəyirik.**

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

## Bələdiyyələrə metodik köməklik göstərilməsi məsələlərinə diqqət daha da artırılacaq

*Azərbaycan Respublikasında ardıcıl olaraq həyata keçirilən demokratik və hüquqi islahatların əsasını və mühüm istiqamətlərini 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunmuş və vətəndaş cəmiyyətinin bərqərar edildiyini ülvi niyyət kimi bəyan edən ölkəmizin ilk demokratik Konstitusiyası – Əsas Qanunu təşkil edir. Bələdiyyələrin hüquqi statusu ilə bağlı əsas müddəalar da Konstitusiyada öz əksini tapmışdır. Bundan əlavə, ölkəmizdə yerli özünüidarəetmə orqanlarının formalaşması və inkişafı üzrə məqsədyönlü tədbirlər həyata keçirilmiş, qanunvericilik bazası yaradılmış, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət mexanizmi formalaşdırılmışdır. Dünya təcrübəsindən də məlum olduğu kimi, yerli özünüidarəetmənin fəaliyyətinə nəzarətin müxtəlif formaları mövcuddur. Belə ki, bələdiyyələrin fəaliyyəti üzərində nəzarətin 3 növü vardır: dövlət orqanları tərəfindən həyata keçirilən nəzarət, bələdiyyədaxili nəzarət, ictimai nəzarət.*

Ayrı-ayrı ölkələrdə bu nəzarət formaları fərqlənsə də, onların hamısında nəzarətin əsas məqsədi yerli özünüidarənin fəaliyyətinin səmərəliliyini təmin etməkdir. Bu istiqamətdə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi tərəfindən hansı tədbirlər həyata keçirilir? Mövzu ilə bağlı müsahibimiz Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin əməkdaşı, kiçik ədliyyə müşaviri Səttar Zamanovdur:

***– Səttar müəllim, bələdiyyələrin yaradılması və inkişafı istiqamətdə həyata keçirilən tədbirlər barədə nə deyə bilərsiniz?***

– Ölkəmizdə ilk bələdiyyə seçkiləri 12 dekabr 1999-cu ildə keçirilmişdir. Yerli özünüidarəyə dair qanunvericiliyin intensiv inkişafı da elə bu ildən sonrakı dövrə təsadüf edir. Seçkilər nəticəsində ölkəmizdə olduğu kimi, muxtar respublikamızda da bələdiyyə institutu formalaşmışdır. Muxtar respublikamızda 171 yerli özünüidarəetmə orqanı fəaliyyət göstərir. Beləliklə, yerli əhaliyə öz problemlərinin həllində iştirak etmək imkanı yaradılmışdır. Onu da bildirim ki, müstəqil respublikamızın hər yerində olduğu kimi, muxtar respublikada da bələdiyyələr hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuşdur. Bunun nəticəsidir ki, muxtar respublikada bələdiyyələrin fəaliyyəti ilbəil təkmilləşir və bu qurumların inkişafı, eləcə də səmərəli bələdiyyə idarəçiliyinin həyata keçirilməsi üçün hər cür şərait yaradılır. Müasir tələblərə cavab verən qəsəbə və kənd mərkəzlərinin inzibati binalarında bələdiyyələr üçün iş şəraitinin yaradılması bunun bariz nümunəsidir.

***– Oxucularımıza bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi qaydaları barədə məlumat verərdiniz.***

– Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət anlayışına müvafiq qanunla aydınlıq gətirilmişdir. Qanuna görə, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilir. 2006-cı ildə Ədliyyə Nazirliyinin yeni Əsasnaməsinin qəbul edilməsi ilə bu sahənin fəaliyyət istiqaməti daha da dəqiqləşdirilmişdir. Bu sahədə nazirliyin əsas vəzifələrindən biri də bələdiyyələrin işinin təşkilinə kömək etmək və onlara metodoloji yardım göstərmək, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirməkdir. Xatırladım ki, 2006-cı il bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin təkmilləşdirilməsi ilə yadda qalmışdır. Naxçıvan Muxtar Respublikasında da bu istiqamətdə sistemli tədbirlər həyata keçirilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 31 may 2006-cı ildə "Naxçıvan Muxtar Respublikasında bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin gücləndirilməsi tədbirləri barədə" Sərəncam imzalamışdır. Həmin sərəncamla nazirliyin Bələdiyyələrlə İş Mərkəzinin statusu yüksəldilmişdir ki, bu da bu qurumun işinə olduqca müsbət təsir göstərmişdir. Adıçəkilən sərəncama görə, inzibati nəzarətin həyata keçirilməsini təmin etmək məqsədilə bələdiyyələr qəbul etdikləri aktların bir surətini həmin aktların qəbul edildiyi andan 15 gündən gec olmayaraq inzibati nəzarəti həyata keçirən orqana göndərməlidirlər.

Onu da bildirim ki, "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanunu ilə bələdiyyələr inzibati orqanlar hesab olunur. Buna görə də hər bir bələdiyyə öz işini qanunvericiliyin tələbləri səviyyəsində qurmalıdır. Bələdiyyələrin işinin düzgün təşkili baxımından bələdiyyələrin qərarları qanunvericiliyin tələblərinə uyğun hazırlanmalıdır. Məlumat üçün onu da bildirim ki, bələdiyyə iclaslarının çağırılması, əhali ilə görüşlərin təşkili və yerli özünüidarəetmə orqanlarının fəaliyyəti üzrə digər məsələlərin tənzimlənməsi məqsədilə "Bələdiyyələrin nümunəvi reqlamenti" ölkə Prezidentinin 21 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir. Ötən müddət ərzində inzibati nəzarətin qanunda müəyyən olunmuş qaydada və hallarda keçirilməsi, bələdiyyələrdə qanunçuluğun təmin olunması istiqamətində işlər davam etdirilmişdir.

***– Bələdiyyələrlə İş Mərkəzi tərəfindən bələdiyyələrə konkret olaraq hansı metodik köməkliklər göstərilmişdir və bundan sonra hansı işlərin görülməsi nəzərdə tutulur?***

– Çoxşaxəli fəaliyyət istiqaməti olan Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrə metodik köməkliyin göstərilməsi və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin səmərəli həyata keçirilməsi istiqamətində işlər davam etdirilmişdir. Belə ki, inzibati nəzarət qaydasında baxılan bələdiyyə aktlarının sayında artım müşahidə olunmuş, bu sahədə hüquq pozuntularının aradan qaldırılması xüsusi diqqət mərkəzində saxlanılmışdır. Qanunçuluğun möhkəmləndirilməsində hüquqi maarifləndirmənin əhəmiyyəti nəzərə alınmaqla mütəmadi olaraq bələdiyyə üzvlərinin və bələdiyyə qulluqçularının iştirakı ilə maarifləndirici tədbirlər keçirilmişdir. Belə ki, bu istiqamətdə ötən son 2 ildə 40-a yaxın seminar-müşavirə keçirilmişdir. Nazirliyin müvafiq qurumlarının əməkdaşlarının da iştirakı ilə hər bir bələdiyyədə ayrılıqda maarifləndirici tədbirlər təşkil olunur, bələdiyyə fəaliyyətini tənzimləyən normativ-hüquqi aktların müddəaları izah edilir. Təəssüf ki, göstərilən metodik köməkliklərə baxmayaraq, bu gün bir sıra bələdiyyələrin fəaliyyətində hələ də nöqsanlar və çatışmazlıqlar qalmaqdadır. Bu nöqsanlar, əsasən, iclas protokollarının qanunvericiliyin tələblərinə uyğun tərtib edilməməsində, arxiv işinin təşkilində və qəbul edilən qərarların hazırlanması və qəbulunda özünü göstərir. Yerli özünüidarə orqanlarında tərəfimizdən təhlillər aparılmış və həmin nöqsanların aradan qaldırılması ilə bağlı hazırlanmış müvafiq sənəd nümunələri onlara göndərilmişdir. Qeyd olunanlardan əlavə, bələdiyyə orqanlarına qanunvericiliyin tələblərindən irəli gələn vəzifələrin düzgün və dürüst yerinə yetirilməsi üçün "Arxiv işinin təşkili", "Bələdiyyə aktlarının qəbulu barədə", "Torpaq sahəsi üzərində bələdiyyənin mülkiyyət hüquqlarının tanınması məsələləri barədə", "Yerli özünüidarəetmə sahəsində büdcə, əməkhaqqı, sosial təminat məsələləri ilə bağlı yeni qanunvericiliyin tətbiqi barədə" və sair mövzularda metodik vəsaitlər göndərilmişdir. Bələdiyyələrlə İş Mərkəzi tərəfindən bütün bələdiyyələrə kargüzarlıq işinin düzgün qurulmasına köməklik göstərilməsi məqsədilə "Bələdiyyələrdə vətəndaşların müraciətlərinə baxılması işinin və kargüzarlığın təşkilinə dair" və "Bələdiyyələrdə mühasibat uçotunun təşkili" ilə bağlı kitablar paylanılmışdır.

2014-cü il yanvar ayının 30-da Naxçıvan Muxtar Respublikasının Ali Məclisində "2013-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair" keçirilən müşavirədə qeyd olunmuşdur ki, Ədliyyə Nazirliyi bələdiyyələrlə işi və onlara metodik köməkliyin göstərilməsini nəzarətdə saxlamalıdır. Həmin tapşırıqların icra olunması istiqamətində tədbirlər müəyyənləşdirilmiş və həyata keçirilir. Belə ki, bu sahədə işin düzgün əlaqələndirilməsi üçün cari ilin fevral ayında yerli özünüidarə orqanlarına metodik köməklik məqsədilə Ədliyyə Nazirliyinin əməkdaşlarının da iştirakı ilə muxtar respublikada fəaliyyət göstərən bütün bələdiyyələrə yerlərdə bilavasitə əməli köməklik göstərilmişdir. Həmin bələdiyyələrdə olarkən Bələdiyyələrlə İş Mərkəzi tərəfindən müvafiq qaydalara uyğun hazırlanan büdcə, ştat cədvəli, nomenklatur siyahı, protokol, qərar və digər sənəd nümunələri formaları hazırlanaraq təqdim edilmiş və sənədlərin hazırlanması, qərarların qəbul edilməsi ilə bağlı qanunvericiliyin tələbləri onlara izah edilmişdir. Habelə qanunçuluq prinsipinə riayət olunmasının təmin edilməsi, aşkar olunan nöqsanların aradan qaldırılması ilə bağlı hər bir bələdiyyə orqanına tövsiyələr təqdim olunmuşdur.

Müvafiq qanunlarda edilən dəyişikliklərə əsasən, bələdiyyə üzvləri və bələdiyyə qulluqçuları Ədliyyə Akademiyasında peşə hazırlığına və ixtisas artırılmasına cəlb olunmalıdırlar. Bu məqsədlə ötən il 10 bələdiyyə sədri, bu ilin fevral ayında isə 10 bələdiyyə sədri Ədliyyə Akademiyasına göndərilmişdir. Bundan sonra da nazirlik öz fəaliyyətində hüquqi maarifləndirmə tədbirlərinin keçirilməsinə daha çox diqqət yetirəcəkdir. Ona görə ki, belə tədbirlər, ilk növbədə, baş verə biləcək hüquq pozuntularının qarşısının alınmasını təmin edir. Bələdiyyələrin fəaliyyətində qanunçuluq prinsipinin gözlənilməsi bələdiyyə idarəçiliyi qarşısında qoyulan məqsədlərə xidmət edir ki, bu da vətəndaşların və müstəqil dövlətimizin marağındadır və inzibati nəzarəti həyata keçirən orqan kimi fəaliyyətimiz bu vəzifələrin yerinə yetirilməsi istiqamətində qurulacaqdır. Gələcəkdə bələdiyyələrlə iş üzrə və onlara metodik köməklik göstərilməsi məsələlərinə diqqət daha da artırılacaqdır.

***Müsahibə üçün sağ olun!***

**Səbuhi HÜSEYNOV**

---

***Ölkəmizdə xüsusi qayğıya ehtiyacı olan insanların sosial hüquqlarının qorunması, onların sosial müdafiəsinin gücləndirilməsi daim diqqət mərkəzindədir. Pensiyaların, təqaüd və müavinətlərin məbləğlərinin artırılması, həmçinin yeni təqaüd və müavinətlərin təsis edilməsi bu kateqoriyadan olan şəxslərin rifahının yüksəldilməsinə xidmət edir. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq, Azərbaycan Respublikası Prezidenti müharibə əlillərinin, müharibə veteranlarının, ümumi səbəbdən əlil olanların sosial müdafiəsini gücləndirmək, onlara dövlət qayğısını artırmaq məqsədilə müvafiq sərəncam və fərmanlar imzalamışdır.***

## Sosial müdafiəyə ehtiyacı olanlara daha bir dövlət qayğısı

Azərbaycan Respublikası Prezidentinin 17 mart 2014-cü il tarixli "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması barədə" Fərmanına uyğun olaraq, cari il aprel ayının 1-dən etibarən Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və Konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşlara təyin olunan Prezident təqaüdünün aylıq məbləği artırılaraq I qrup müharibə əlillərinə 150 manat, II qrup müharibə əlillərinə 130 manat, III qrup müharibə əlillərinə 100 manat müəyyən edilmişdir. Bu fərman muxtar respublikada yaşayan 863 nəfər müharibə əlilinə şamil olunacaqdır.

Azərbaycan Respublikası Prezidentinin 17 mart 2014-cü il tarixli digər Fərmanı ilə "Əlillik ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən baş verdikdə I qrup əlilliyə görə sosial müavinət alanlara Azərbaycan Respublikası Prezidentinin təqaüdü" təsis edilmişdir. Bu təqaüdün aylıq məbləği 60 manatdır. Bu fərman əmək pensiyası almaq hüququ olmayan və sosial müavinət alan I qrup əlillərə şamil olunur. 2014-cü il 1 aprel tarixindən etibarən muxtar respublikada yaşayan və sosial müavinət alan I qrup 603 əlilə hər ay aldıqları 67 manat məbləğində vəsaitlə birgə 60 manat məbləğində Prezident təqaüdü də ödəniləcəkdir.

"Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 17 mart 2014-cü il tarixli Fərmanına uyğun olaraq, əmək pensiyası hüququ olmayan müharibə veteranlarına aylıq ödənilən sosial müavinətin məbləği 45 manat müəyyən edilmişdir. Bu fərman 2014-cü il 1 aprel tarixindən muxtar respublikada yaşayan və əmək pensiyası almaq hüququ olmayan 2429 nəfər müharibə veteranına şamil olunacaqdır.

Məlumat üçün qeyd edək ki, 2014-cü il yanvarın 1-dən qüvvədə olan Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2013-cü il tarixli "Beşdən çox uşağı olan qadınlara müavinətin müəyyən edilməsi haqqında" Fərmanına uyğun olaraq, beşdən çox uşağı olan qadınlara müavinətin məbləği hər uşaq üçün 30 manat müəyyən edilmişdir.

2014-cü il 1 aprel tarixindən etibarən rayon (şəhər) Əhalinin Sosial Müdafiəsi mərkəzləri tərəfindən müvafiq vətəndaşlara müavinət və təqaüdlərin artırılmış məbləğdə ödənilməsi təmin olunacaqdır.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

---

## Yaz əkinləri davam etdirilir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" muxtar respublikada aqrar sektorun inkişafında mühüm əhəmiyyət kəsb edən dövlət sənədidir. Proqramın qəbulundan ötən müddət ərzində bu istiqamətdə xeyli nailiyyətlər əldə olunub. Elə 2013-cü ilin qısa statistikasına nəzər salsaq, bunun şahidi olarıq. Bəhs olunan dövrdə muxtar respublikada 60 min 127 hektar sahədə əkin aparılıb, taxılçılıq əsas əkinçilik sahəsi olmaqla diqqət mərkəzində saxlanılıb, 35 min 324 hektar sahədə taxıl əkilib. Zəmilərdən 102 min 960 ton məhsul toplanıb.

Kartofçuluğun inkişafında da müsbət dinamika saxlanılmaqla, 2957 hektar sahədə kartof əkini həyata keçirilib, əkin sahələrindən 41296,8 ton kartof yığılıb.

2013-cü ildə 109468 ton dənli və dənli-paxlalı məhsulu (qarğıdalısız), 3882,9 ton dən üçün qarğıdalı, 694,9 ton dən üçün günəbaxan, 66497 ton tərəvəz, 39037,5 ton ərzaq üçün bostan məhsulları, 43276,2 ton meyvə, 15112,7 ton üzüm tədarük edilib.

Həyata keçirilən aqrar siyasətin səmərəli nəticəsi kimi, 2013-cü ildə muxtar respublikada 337 milyon 127 min manatdan çox kənd təsərrüfatı məhsulları istehsal olunub.

Cari ildə də kənd təsərrüfatının inkişafı diqqət mərkəzində saxlanılıb. Torpaq mülkiyyətçiləri yazın ilk günlərindən sahələrə çıxıblar. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyindən aldığımız operativ məlumata görə, yaz əkinləri üçün bu günədək 2500 hektar sahədə şum aparılıb, 1800 hektar sahədə əkin keçirilib ki, bunun da 700 hektarını arpa, 300 hektarını kartof, 800 hektarını bostan-tərəvəz bitkiləri təşkil edir.

Şum aparılması və əkin prosesi davam etdirilir.

---

## "İstiqlal" küçəsindəki 87 nömrəli bina yenidən qurulur



"2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram"a uyğun olaraq, paytaxt Naxçıvan şəhərində abadlıq və təmir-bərpa işləri sürətlə davam etdirilir. Bu tədbirlər Naxçıvan şəhərinin "İstiqlal" küçəsini də əhatə edib.

Adıçəkilən ünvandakı 87 nömrəli ictimai yaşayış binasında aparılan yenidənqurma işləri "Dizayn İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçılarına həvalə edilib. Binaya sonradan əlavə edilmiş artırmalar sökülüb, insanların mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə əlavə yaşayış sahələrinin tikintisinə başlanılıb. Tikilinin davamlılığını artırmaq üçün binanın ön hissəsi 4 metr hündürlükdə olan dəmir-beton vasitəsi ilə möhkəmləndirilib. Hazırda girişlərdəki su, elektrik, telefon xətləri yenilənir və suvaq işləri aparılır.

Binanın 3 metr enində, 47 metr uzunluğunda genişləndirilməsi nəzərdə tutulub. Bu tədbir ilk iki mərtəbədə başa çatdırılıb. Yaxın günlərdə dam örtüyünün dəyişdirilməsinə başlanılacaq, bina üzlənəcəkdir.

**Xəbərlər şöbəsi**

*Bu gün muxtar respublikamızda bütün sahələrdə olduğu kimi, idman sahəsində də uğurlarımız artmaqdadır. Hər il idmançılarımız dünya, Avropa və beynəlxalq turnirlərin iştirakçısı olur, uğurlu nəticələr əldə edirlər. Muxtar respublikada idmanın bütün növləri üzrə peşəkar və güclü idmançılar hazırlanır. Təbii ki, idmançıların hər hansı bir idman növünün sirlərinə mükəmməl şəkildə yiyələnməsində, güclü idmançı kimi yetişməsində muxtar respublikamızda fəaliyyət göstərən idman məktəblərinin rolu çox böyükdür. Haqqında söhbət açacağımız Ordubad Rayon Şahmat Məktəbi də təcrübəli məşqçi-müəllim kollektivi ilə seçilir, əldə etdiyi uğurları ilə diqqət çəkir. Məktəbin fəaliyyəti ilə daha yaxından tanış olmaq üçün bu günlərdə həmin tədris ocağında olduq. Öyrəndik ki, şahmat məktəbi 1983-cü ildə yaradılmışdır.*

# Ordubad məktəblərində şahmat fənninin tədrisi uğurlarla nəticələnir



8 məşğələ otağından, 7 dəst müasir kompüter qoyulmuş və internetə çıxışı təmin edilmiş kompüter otağından, hakim otaqlarından, eləcə də 50 nəfər şahmatçının eyni zamanda yarışa biləcəyi zaldan ibarət məktəb iki növbədə fəaliyyət göstərir. Məktəbdə 21 müəllim şahmatın sirlərini şagirdlərə öyrədir. Məktəbin direktoru İsrafil Məmmədov bizimlə söhbətinə ölkəmizdə, eləcə də muxtar respublikamızda bütün sahələrə olduğu kimi, idman sahəsinə də dövlətimiz tərəfindən böyük diqqət və qayğı göstərildiyini qeyd etməklə başladı. Bildirdi ki, məhz bu diqqət və qayğı sayəsində istedadlı uşaq və gənclərin aşkara çıxarılıb onların istedad və bacarıqlarının inkişaf etdirilməsi məqsədilə "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)" qəbul edilərək uğurla həyata keçirilmişdir. Hazırda isə "2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı" həyata keçirilməkdə, bu proqramın uğurlu icrası muxtar respublikamızın bütün bölgələrində parlaq nəticələr qazanılmasına səbəb olmaqdadır. Həyata keçirilən layihələr, görülən işlər sayəsində şahmat idman növü günü-gündən inkişaf edir, muxtar respublika şahmat diyarı kimi tanınır. İsrafil Məmmədov bildirdi ki, əldə olunan ilk uğurlar məktəb kollektivi və şagirdlərdə yüksək əhval-ruhiyyə yaratmışdır. Şagirdlər respublika və beynəlxalq əhəmiyyətli turnirlərdə iştirak etməyə başlamışlar. Gənc şahmatçılar müəyyən yaşa çatdıqdan, dərəcələr aldıqdan sonra məktəbə məşqçi-müəllim təyin olunurlar. Ordubad Rayon Şahmat Məktəbinin yetirmələri – M.T.Sidqi adına Ordubad şəhər 1 nömrəli tam orta məktəbin birinci sinif şagirdi Hüseyn Seyid və Nüsnüs kənd tam orta məktəbinin ikinci sinif şagirdi Zərrin Məmmədli ötən ilin sonunda Naxçıvan şəhərində keçirilən muxtar respublika birinciliyində 8 yaşadək olan şahmatçılar arasında birinci yeri tutduqlarına görə şahmat üzrə yeniyetmə və gənclərin respublika zona yarışlarında iştirak etmək hüququ əldə etmişlər. Bu il yanvar ayının 2-dən 11-dək Şəmkir Şəhər Olimpiya-İdman Kompleksində keçirilən zona yarışlarında Ordubad rayonu ilk dəfə iştirak etməsinə baxmayaraq, hər iki şahmatçımızın çıxışları uğurlu olmuşdur. Yarışın yekununda üçüncü yerə çıxan hər iki şahmatçımız birinciliyin təşkilatçıları tərəfindən diplomlarla mükafatlandırılmış və onlar bu ilin iyun ayında Bakı şəhərində keçiriləcək mötəbər final yarışlarına vəsiqə qazanmışlar. Oğlanlar və qızların mübarizə aparacağı respublika birinciliyində muxtar respublikamız 8 yaşlı şahmatçılar arasında ilk dəfə təmsil ediləcək.

Qeyd edək ki, hər iki şahmatçımızı bu mötəbər yarışlara ibtidai və metodik hazırlıq üzrə Lamiyə Məmmədova və Fətulla Həmdiyev hazırlamışlar. Şahmatçılarımızın akademik və taktiki hazırlıqları ilə isə Bakı şəhərindən rayona ezam edilmiş ali kateqoriyalı məşqçi-müəllim, FİDE ustası Sabir Hüseynov məşğul olmuşdur. Bu təcrübəli müəllim Şəmkirdə keçirilən birincilik zamanı da hər iki şahmatçımıza elmi, metodik və taktik köməkliklər göstərmiş, hər bir oyun üçün ayrıca plan tərtib etmişdir.

Sabir Hüseynovla söhbətimizdə bildirdi ki, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişafı barədə dövlət proqramı qəbul olunmuşdur. Proqramda şahmatın infrastrukturunun genişləndirilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, şahmat mütəxəssislərinin hazırlanması və bu hazırlıq sisteminin təkmilləşdirilməsi, şahmatın tədrisinin ümumtəhsil məktəblərində dərs proqramına daxil edilməsi, şahmatla bağlı məlumat, maarifçilik və təbliğat işinin gücləndirilməsi və sair məsələlərin həyata keçirilməsi nəzərdə tutulur. Bu proqram bütün şahmatçılar, məşqçilər üçün əsas sənəddir. Dövlət proqramında Azərbaycanda şahmat məktəblərinin və klubların tamamilə yenidən qurulması və istedadlı gənc şahmatçıların aşkara çıxarılması da qarşıya qoyulan vəzifələr sırasındadır.

Sevindirici haldır ki, bu gün muxtar respublikada şahmat məktəblərinin fəaliyyəti üçün hər cür şərait yaradılmışdır. Eyni zamanda dövlət proqramından irəli gələn məsələlərdən biri də orta məktəblərdə şahmatın fənn kimi keçirilməsidir. Bu, gənc istedadlı şahmatçıların üzə çıxarılması baxımından olduqca əhəmiyyətli məsələdir. Bu zaman əsas iş məşqçi-müəllimlərin üzərinə düşür. Qazanılan uğurlar Şahmat Məktəbinin müəllim və şagird kollektivini sevindirir və hər il bu nəticələr daha da artır.

Şahmat məktəbinin məşqçi-müəllimlərindən Lamiyə Məmmədova deyir ki, ölkəmizdə şahmatın inkişafı istiqamətində həyata keçirilən tədbirlər Naxçıvan Muxtar Respublikasında da şahmatın inkişafına təkan vermişdir. Təkcə 2000-2012-ci illərdə muxtar respublikada 1 Şahmat Mərkəzi və 7 şahmat məktəbi üçün yeni binalar tikilərək istifadəyə verilmişdir. Şahmat infrastrukturunun müasirləşdirilməsi ilə yanaşı, muxtar respublikada yeni şahmatçılar nəsli də yetişdirilmiş, son illər Naxçıvanda 40-dan çox muxtar respublika səviyyəli turnir və birincilik, eləcə də 6 beynəlxalq səviyyəli turnir keçirilmişdir. Muxtar respublikanın tam orta məktəblərində şahmatın ayrıca fənn kimi tədris olunması sevindirici haldır. Çünki şahmat elə bir idman növüdür ki, hər bir insanın təfəkkürünü, düşüncəsini, hafizəsini formalaşdırır. Bu da hər bir məktəbli üçün vacib şərtlərdəndir.

Məktəbin məşqçi-müəllimi Fətulla Həmdiyevlə söhbətimizdə dedi ki, insanlar əyləncə ilə istirahətlərini təmin etməyi bacarmalıdırlar. Lakin əyləncənin sonda hansı səmərə verəcəyini düşünmək də əsas sayılır. Müxtəlifyaşlı insanlar asudə vaxtlarda daha çox intellektual idman növlərinə üstünlük verirlər. Stolüstü oyunlar bu qəbildəndir. Şahmat onların arasında daha böyük nüfuza malikdir. Bu idman növü özünəməxsus səviyyəsi, oyun üslubu ilə şahmat oynamağa yeni başlayan oyunçunu ağılın hökmranlıq etdiyi sehrli bir dünyaya aparır. Bu aləm bilik, incəsənət, məntiq, estetika, taktika tərəfindən idarə olunur. Güman ki, şahmatda əsas əvvəlcədən səhvsiz gedişi düşünməkdir. Variantları kim daha yaxşı hesablasa, o, qələbə qazanacaq. Lakin vaxt getdikcə, variantlar çoxaldıqca qabaqcadan hesabladığın gedişlərə də xitam verilir; qabaqcadan düşünülmüş taktikaya baxmayaraq, mövqeyin zəifləyir, getdikcə pisləşir və heç bir hesablama kömək etmir. Mövqeyi qiymətləndirmək, qabiliyyət və qeyri-adi intuisiya şahmatçıda həlledici rol oynayır. Tam orta məktəblərdə keçilən şahmat dərsləri zamanı da uşaqlara şahmatın sirlərini öyrətməklə bərabər, yuxarıda sadaladığım keyfiyyətləri də üzə çıxarmağa çalışırıq.

Bəs ümumtəhsil məktəblərində şahmat dərsləri necə təşkil edilib?

Ordubad Rayon Təhsil Şöbəsinin müdiri İlqar Həsənov uşaqların kiçik yaşdan şahmat oynamağı öyrənməsinin onların məntiqi düşünmə qabiliyyətinin inkişafına, sərbəst, təşəbbüslü, mütəşəkkil şəxsiyyət kimi formalaşmasına xidmət edəcəyini bildirdi. Dedi ki, hazırda rayonun əksər ümumtəhsil məktəbində şahmat fənni tədris olunur. Həmin fənni tədris edən müəllimlər şahmat sahəsində müəyyən bilik və təcrübəsi olan ümumtəhsil məktəblərinin müəllimləri arasından seçilmiş və həmin müəllimlər üçün təlim kursları təşkil olunmuşdur. Ötən müddət ərzində aparılan müşahidə və təhlillər göstərmişdir ki, şahmat fənninin tədrisi şagirdlərin böyük marağına səbəb olmaqla onların idraki fəallığını xeyli artırır, düşünmə qabiliyyətlərini gücləndirir. Bütün bunların nəticəsində şagirdlərin digər fənlər üzrə göstəriciləri də nəzərəçarpacaq dərəcədə yüksəlmişdir. Fənnin tədrisi sahəsində qazanılan uğurlar şahmat təliminin daha yüksək səviyyədə davam etdirilməsinə və şahmatın əhatə dairəsinin genişləndirilməsinə etibarlı zəmin yaradır.

✍ S.HÜSEYNOV

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi

### *Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə 2014-2015-ci tədris ili üçün tələbə qəbulu qaydaları*

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbula namizədlər Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 santimetr, çağırışçı kimi Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində qeydiyyatda olan, buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli 17 yaşı tamam olan və 19 yaşı tamam olmayan Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları sırasından seçilirlər.

Abituriyentlər Daxili Qoşunların Baş İdarəsində yaradılmış fiziki hazırlıq, hərbi həkim və mandat komissiyalarında Daxili İşlər Nazirliyi tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər: turnikdə dartınma – 6 dəfə, 100 metr məsafəyə qaçış – 15 saniyə və 1000 metr məsafəyə – 4 dəqiqə, qolların üzərində bədənin döşəmədən qaldırılması – 18 dəfə, arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 18 dəfə).

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı qəbul imtahanlarında iştirak etmələri üçün Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına göndərilir.

İmtahanlar test üsulu ilə IV qrup fənləri üzrə Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə komissiyanın internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul olunmuş abituriyentlər dövlət hesabına geyim forması, yataqxana və yeməklə təmin edilirlər. Məktəbdə tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 4 ildir.

Məzunlara "Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi" ixtisası və "leytenant" hərbi rütbəsi verilərək Daxili Qoşunlarda müvafiq vəzifələrə təyin edilirlər. İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan, 2014-cü ilin aprel və iyul çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də Daxili Qoşunlarda xidmətə qəbul üçün müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən abituriyentlər Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul edilmirlər.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul üçün namizədlər Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Baş İdarəsinə (ünvan: Bakı şəhəri, Binəqədi rayonu, Q.Musabəyov küçəsi 4) aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

*- şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və notariat qaydada təsdiq olunmuş surəti);*

*- təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında Daxili Qoşunların Baş İdarəsinə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestatın əsli və notariat qaydada təsdiq olunmuş surəti);*

*- yaşayış yeri üzrə tibb müəssisəsindən Daxili Qoşunların Baş İdarəsinə təqdim olunması üçün sağlamlıq haqqında arayış;*

*- ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və notariat qaydada təsdiq olunmuş surəti);*

*- oxuduğu təhsil müəssisəsi tərəfindən Daxili Qoşunların Baş İdarəsinə təqdim olunması üçün verilmiş xasiyyətnamə;*

*- 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).*

Ərizə və sənədlərin qəbulu 2014-cü ilin aprel ayının 10-dək olan müddətdə (bazar və bayram günləri istisna olmaqla) hər gün saat $10^{00}$-dan $17^{00}$-dək həyata keçiriləcəkdir.

***Məlumat üçün əlaqə telefonları: (012)-513-04-51, (012)-560-27-00***

## Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi

### *2014-cü il üçün kotirovka elan edir*

***1.Yaz-yay mövsümü üçün əşya əmlaklarının satın alınması***

Kotirovka 15 aprel 2014-cü il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki, iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 16 aprel 2014-cü il tarixdə saat $11^{00}$-də Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Əlaqələndirici şəxs: Cabbarov Murad Rasim oğlu***
***Telefon/faks: 544-48-34***
***Ünvan: Naxçıvan şəhəri, C.Məmmədquluzadə küçəsi***

## 2014-cü ilin aprel ayında rayon (şəhər) məşğulluq mərkəzləri tərəfindən keçiriləcək əmək yarmarkalarının qrafiki

| № | Rayon (şəhər) | Yarmarkanın keçirildiyi yer | Yarmarkanın keçirilmə tarixi | Yarmarkanın keçirilmə vaxtı |
|---|---|---|---|---|
| 1 | Sədərək rayonu | Heydərabad Qəsəbə Mərkəzi | 01.04.2014 | $11^{00}$ |
| 2 | Kəngərli rayonu | Məşğulluq Mərkəzinin inzibati binası | 02.04.2014 | $11^{00}$ |
| 3 | Şahbuz rayonu | Şahbuz şəhər "Araz" kinoteatrının binası | 03.04.2014 | $11^{00}$ |
| 4 | Culfa rayonu | Məşğulluq Mərkəzinin inzibati binası | 04.04.2014 | $11^{00}$ |
| 5 | Ordubad rayonu | Mədəniyyət və Turizm Şöbəsinin inzibati binası | 08.04.2014 | $11^{00}$ |
| 6 | Babək rayonu | Mədəniyyət və Turizm Şöbəsinin inzibati binası | 09.04.2014 | $11^{00}$ |
| 7 | Şərur rayonu | Şərur Şəhər Mədəniyyət Sarayı | 10.04.2014 | $11^{00}$ |
| 8 | Naxçıvan şəhəri | "Gənclik" Mərkəzi | 11.04.2014 | $11^{00}$ |

### *Allah rəhmət eləsin*

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin Baş direktoru Yasin Səfərov və agentliyin kollektivi iş yoldaşları Vaqif Talıbova, bacısı **NƏCİBƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin tərcüməçilik ixtisasının I kurs tələbələri qrup yoldaşları Xədicə Telmanqızına, atası **TELMANIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 291